# “Bakı-2015” birinci Avropa Oyunları beynəlxalq aləmdə Azərbaycanın qüdrətini, nəyə qadir olduğunu göstərdi

Azərbaycan böyük idman ölkəsinə çevrilmişdir. 1996-cı ildən dünyanın qabaqcıl mədəniyyət mərkəzlərində keçirilən beynəlxalq idman yarışlarında Azərbaycan idmançıları ölkəmizi təmsil etmişlər. Atlanta (1996), Sidney (2000), Afina (2004), Pekin (2008), London (2012) Yay Olimpiya oyunlarında idmançılarımız qızıl, gümüş və bürünc medallara layiq görülmüşlər. Onlar əsl sınaq və şöhrət meydanı olan ən mötəbər beynəlmiləl yarışlarda ölkə idmanının gücünü və qüdrətini bütün dünyaya nümayiş etdirməyi, üçrəngli Azərbaycan bayrağını zirvələrə qaldırmağı bacarmış, öz uğurları ilə ölkəmizi beynəlxalq idman aləminə tanıtmışlar.

Müstəqil Azərbaycanda sürətli iqtisadi artım Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyevin idman sahəsində dirçəliş yaratmasına imkan vermişdir: İdman klubları, cəmiyyətlər, federasiyalar, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, regionlarda müasir olimpiya idman kompleksləri, yeni təhsil müəssisələri idmanı inkişaf etdirməyə xidmət etmişdir.

Ölkəmizdə müxtəlif beynəlxalq səviyyəli tədbirlər də keçirilmişdir.

Ağır atletika üzrə Avropa çempionatı (2012-ci il), 17 yaşlı qızlar arasında futbol üzrə dünya birinciliyi, qayaqaydırmanma üzrə Dünya Kuboku yarışları və Formula-2 Qran-prisi (2013-cü il), həmçinin Eurovision, Davos İqtisadi Forumu, Krans-Montana, Ümumdünya Mədəniyyətlərarası Dialoq, Bakı Beynəlxalq Humanitar forumları kimi genişmiqyaslı dünya tədbirlərinə ev sahibliyi etməklə toplanan təcrübələr Azərbaycana dünya miqyaslı, həm də standartı olmayan ilk Avropa Oyunlarına ev sahibliyi etməkdə kara gəlmişdir.

Bu böyük idman bayramı Azərbaycanın ictimai-siyasi, iqtisadi yüksəlişinin, inkişaf etmiş dünya ölkələri sırasına çıxmasının ən bariz təzahürlərindən biridir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev hakimiyyətinin ilk dövrlərindən ümummilli lider Heydər Əliyevin müdrik ideyalarının davamçısı kimi yeniyetmə idmanına xüsusi diqqət və qayğı ilə yanaşdı, Azərbaycan idmanını beynəlxalq aləmdə tanıtdı.

Məlum olduğu kimi, I Avropa Oyunları 2012-ci il dekabrın 9-da Romada Avropa Olimpiya Komitəsinin Baş Assambleyasının toplantısında təsis olunmuşdur. Avropada bütün Milli Olimpiya komitələrinin atletləri üçün çoxnövlü idman tədbirini ilk dəfə keçirmək hüququ Azərbaycana verilmişdir.

Bu böyük etimad, tarixi hadisə münasibətilə Azərbaycan xalqını təbrik edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: “Bu, doğrudan da tarixi hadisədir. Çünki bu vaxta qədər Avropa Olimpiya Oyunları keçirilməmişdir və ilk oyunların Bakıda keçirilməsi böyük tarixi hadisədir, ölkəmizin böyük uğurudur”.

“Bakı-2015” ilk Avropa Oyunlarının ölkəmizdə hazırlanması və keçirilməsinə böyük diqqətlə yanaşılmışdır. Təşkilat Komitəsinin sədri, Azərbaycanın birinci xanımı, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Azərbaycanda ilk Avropa Oyunlarına ev sahibliyinin şərəf işi olduğunu söyləmiş, bu mühüm dövlət tədbirinin ləyaqətlə yerinə yetiriləcəyinə dərin inamla demişdir: “...Biz çalışmalıyıq ki, bu oyunlar ən yüksək səviyyədə hazırlansın və ən yüksək səviyyədə keçirilsin. Ümumiyyətlə, bu, Avropanın idman hərəkatının tarixində yeni bir dövrün başlanmasıdır və Azərbaycan bu tarixin ilk səhifələrini yazan ölkədir. Qeyd etməliyəm ki, Azərbaycan hökuməti və xalqı bu oyunları dəstəkləyir. Biz ölkəmizin Avropa Olimpiya ailəsinin tarixində əsas rol oynayacağından çox həyəcanlıyıq. Biz üzərimizə düşən məsuliyyəti anlayırıq. Bu da öz növbəsində bizdən ilk təşkilatçının uğurlu olmasının təminatını tələb edir. Öz tərəfimizdən sizi əmin edə bilərik ki, bu məqsədə nail olmaq üçün Azərbaycan əlindən gələni etməyə hazırdır”.

Avropa Oyunlarında irimiqyaslı idman tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdu: “Bu möhtəşəm beynəlxalq səviyyəli yarışlarda 6 mindən çox idmançı 253 medal dəsti uğrunda mübarizə aparacaq idi. Komandaların üç mindən çox rəsmi nümayəndəsi iştirak edəcəkdi. Avropa Olimpiya Komitəsinin üzvü olan 49 milli komitə dəvət ediləcək idi. Yarışlar idmanın 19 növü üzrə ümumilikdə 20 arenada keçiriləcək idi. Oyunlara 20 minə yaxın könüllü cəlb olunmuşdu. Böyük tədbiri həyata keçirmək üçün dünya standartlarına uyğun yüksək səviyyəli idman obyektləri yaradılması tələb olunurdu. Mövcud imkandan səmərəli istifadə etməklə hazırlıq işlərinin görülməsi istedad, bacarıq, peşəkarlıq, fövqəladə təşkilatçılıq, fədakarlıq olmadan mümkün deyildi. Adətən ev sahibliyi etmək hüququ qazanan ölkələrə Avropa Oyunları miqyasında yarışların təşkil edilməsinə, hazırlıq işlərinin başa çatdırılmasına yeddi il vaxt verilir. Fərəhlə deməliyik ki, Azərbaycanda “Bakı-2015” ilk Avropa Oyunlarının keçirilməsi üçün nəzərdə tutulmuş tikinti obyektləri iki il yarım ərzində başa çatdırılmışdır. Bu, misli görünməmiş hünər idi.

382 min 397 kvadratmetr sahəni əhatə edən “Olimpiya kəndi” inşa edilmişdi. Burada 8 minə yaxın atletin qalması, qidalanması və istirahətinə şərait yaradılmışdı.

“Olimpiya kəndi”—Olimpiya stadionu, Su İdman Növləri Mərkəzi, Gimnastika Kompleksi kimi əsas idman tikintiləri ilə əhatə olunmuşdur.

*Mən Milli Olimpiya Komitəsinin prezidenti kimi, bir çox Olimpiya Oyunlarının açılışlarında olmuşam, müqayisə aparmaq üçün kifayət qədər imkanım var. Amma burada Avropa Oyunları ən yüksək səviyyədə keçirilib. Keçən Olimpiya Oyunlarında Londonda küçələrdə əlisilahlı insanlar gəzirdi, binaların damlarında hava hücumuna qarşı qurğular quraşdırılmışdı. Elə bil ki, sən müharibə şəraitində olan ölkəyə gəlmisən. Elə bil ki, fövqəladə vəziyyət yaradılmışdı. Amma heç kim Bakıda bir nəfər də əlisilahlı insan görmədi. Bax, budur bizim imkanlarımız. Təhlükəsizlik, mədəniyyət, səviyyə, insanlar — budur bizim dəyərimiz. Azərbaycan göstərdi ki, böyük potensiala malik olan güclü ölkədir. Bu Oyunlar Azərbaycan xalqının və Azərbaycan dövlətinin təntənəsidir.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Burada iki, üç, dörd otaqlı mənzili olan yaşayış binaları, 42 min kvadratmetr sahəni əhatə edən dupleks evlər, elektrik yarımstansiyaları, qazanxana, yeraltı su anbarı, nasosxana, hər binanın maşın parkı inşa olunmuş, voleybol, basketbol meydançaları, qapalı üzgüçülük hovuzu, trenajor zalı yaradılmışdır.

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki, Birinci Avropa Oyunlarının əməliyyatlar üzrə baş direktoru Saymon Kleq Avropa Oyunlarının yüksək səviyyədə təşkilində güclü və peşəkar (43 ölkənin nümayəndəsi çalışan) komandanın işindən məmnun qalmışlar. Komandanın tərkibində 1356 nəfərin əksəriyyəti azərbaycanlı, 230-u London Yay Olimpiya Oyunlarının (2012) Təşkilat Komitəsində çalışan peşəkarlar olmuşdur.

Avropa Olimpiya Komitəsinin Əlaqələndirmə Komissiyasının sədri Spiros Kapralos Bakının ev sahibliyi edəcəyi Avropa Oyunlarına yüksək səviyyədə hazırlıq görülməsi barədə demişdir: “Obyektlərə olan səfərdə dünya səviyyəli idmanın obyektlərində olan inkişafı görmək və obyektlər arasındakı marşrut şəbəkəsi ilə tanış olmaq mən və mənim komissiyam üçün əvəzolunmaz hiss idi”.

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki Bakı şəhərinin unudulmaz tədbiri qəbul etməyə tam hazır olmasını məmnunluqla qeyd edir: “İki il yarım ərzində əldə edilmiş bu qədər nailiyyət Azərbaycanın ilk Avropa Oyunlarını həyata keçirmək üçün göstərdiyi səyləri təsdiqləyir. Avropanın idmançıları və idman azarkeşləri onları gözləyən yüksək səviyyəli idman obyektləri və məkanlardan məmnun qalacaqlar. “Bakı-2015” Avropa Oyunları üçün möhtəşəm başlanğıc platforması olacaq”.

2014-cü ilin noyabrında Bakı şəhərində Avropa Olimpiya Komitəsinin 43-cü Baş Assambleyasında Avropa ölkələrinin Milli Olimpiya komitələrinin nümayəndə heyətləri, beynəlxalq idman qurumlarının rəhbərləri “Bakı-2015” Avropa Oyunları Əməliyyat Komitəsinin hesabatını dinlədilər. Assambleyada çıxış edən Prezident İlham Əliyev “Avropa ilə Asiya arasında körpü olan Azərbaycanı dünyada çoxmədəniyyətliliyin mühüm mərkəzlərindən biri kimi” səciyyələndirdi, beynəlxalq ictimaiyyətin fəal üzvü olan ölkəmizin dünyada güclü mövqeyindən, böyük potensialından danışdı, 2016-cı ildə Bakıda Dünya Şahmat Olimpiadasının, 2017-ci ildə isə İslam Həmrəyliyi Oyunlarının keçiriləcəyini nəzərə çatdırdı. Əminliklə bildirdi ki, ilk Avropa Oyunları yüksək səviyyədə keçiriləcəkdir. Möhtəşəm idmanın bütün yer üzünün insanlarını birləşdirəcəyi qənaətində olan Prezident İlham Əliyev deyir: “...Ümid edirik ki, Avropa Oyunları dostluq, tərəfdaşlıq oyunları olacaqdır”.

2015-ci ilin yanvarında Heydər Əliyev Fondu İsveçrənin Davos şəhərində “Bakı-2015” ilk Avropa Oyunlarının təqdimatını keçirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin iştirak etdikləri beynəlxalq tədbirdə xarici ölkələrin ictimai-siyasi xadimlərində, idman ictimaiyyətinin nümayəndələrində ilk Avropa Oyunlarına hazırlıq barədə dolğun təsəvvür yaradılmışdır: “Biz birlikdə” adlı sərgidə 20-dən çox Azərbaycan heykəltəraşının idmana həsr etdikləri bürünc heykəllər nümayiş etdirilmiş, “Bakı-2015” ilk Avropa Oyunlarına hazırlıq tədbirlərindən, nəhəng tikinti meydançasında görülən işlərdən bəhs edən film göstərilmişdir. Bu təqdimat mahiyyətcə Azərbaycanın əzəmətli, beynəlxalq, mən deyərdim ki, misilsiz nəhəng addımının doğurduğu inamı, ümidi, həyəcanı əks etdirirdi.

Misli görünməmiş böyük idman tədbirinə Azərbaycan xalqının mənəvi dəstəyi və xeyir-duası olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Bakı-2015” ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin iştirakı ilə Atəşgah Məbədində yandırdığı məşəlin estafeti keçirilmişdir. İdmançıların müşayiəti ilə məşəl estafeti müəyyən marşrutla regionlara səfər edir, gəzib-dolaşırdı. Onun böyük idman müjdəsi apardığı kənd, qəsəbə və şəhərlərdə alqışlarla qarşılanır, bayram şənlikləri keçirilirdi. Məşəl estafeti Neft Daşlarında, Bakının küçə və meydanlarında da izdihamla qarşılandı. Azərbaycan xalqının həmrəyliyi, birliyi, xeyir-duası ilə süslənmiş məşəl estafeti 2015-ci il iyunun 12-də möhtəşəm Olimpiya Stadionunda ilk Avropa Oyunlarının məşəlini alovlandırdı. Üçrəngli Azərbaycan bayrağı dalğalandı. On minlərlə tamaşaçının sürəkli alqışı arşa bülənd oldu: Birinci Avropa Oyunlarının açılış mərasimi qeyri-adi təntənəli, əfsanəvi fəlsəfi məzmunu ilə milyon-milyon ürəkləri riqqətə gətirdi.

“Bakı-2015” ilk Avropa Oyunları uğurla başa çatdı. Təntənəli bağlanış mərasimi tamaşaçıları son dərəcə maraqlı məqamlar və sürprizlərlə qarşıladı. Beynəlxalq idman ictimaiyyəti möhtəşəm, əsrarəngiz idman bayramından xoş duyğularla, unudulmaz təəssüratla ayrıldılar.

Azərbaycanın birinci xanımı, “Bakı-2015” ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva öz çıxışında dedi: “Bu axşam biz hamınızla sağollaşırıq. Lakin sizi Azərbaycanda gələcək tədbirlərdə yenidən görməyə ümid edirik.

Gələn il Bakıda 42-ci Şahmat Olimpiadası və Formula-1 Avropa Qran-pri yarışları keçiriləcək. 2017-ci ildə biz dördüncü İslam Həmrəylik Oyunlarını qəbul edəcəyik. Nəhayət, 2020-ci ildə futbol üzrə Avropa çempionatının matçları şəhərimizdə təşkil olunacaq. Bu axşam biz məşəli söndürəcəyik!”.

İlk Avropa Oyunlarının gərgin, həyəcanlı 17 günü əmin-amanlıq, sabitlik şəraitində başa çatdı. Böyük idman meydanında 50 ölkədən 42-si medal qazandı, Azərbaycan atletləri bütövlükdə 56 medal, bundan 21-i qızıl medal olmaqla ümumi medallar cədvəlində ikinci yeri tutdular. Onlar idman arenalarında ən yüksək nəticələr əldə etməklə böyük idmanda nəyə qadir olduqlarını dünyaya sübut etdilər. Onlar xalqın, vətənin etimadını doğrultdular.

Azərbaycan dövləti dünya ictimaiyyəti qarşısında tarixi qələbə qazandı. Əlbəttə, bu uğurların qazanılmasında 17 həyəcanlı günləri yaşayan ölkə Prezidenti İlham Əliyevin böyük xidməti danılmazdır.

İlk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyeva Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə böyük zəfərin qazanılmasında onun mövqeyini obrazlı şəkildə belə ifadə etmişdir:

“17 gün ərzində yaşadığımız xoş anlar üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Mən idman leksikasından istifadə etsəm, deyə bilərəm ki, bu 17 gün ərzində Azərbaycan xalqı bir komanda idi və Siz bu komandanın şərəfli kapitanı idiniz. Belə olan halda, əlbəttə, qalib gəlməmək mümkün deyildi”.

“Bakı-2015” ilk Avropa Oyunlarının keçirildiyi 17 gün ərzində dünyanın nəzəri Azərbaycana yönəlmişdi. “Odlar yurdu” adlanan ölkəmizdə misli görünməmiş böyük idman həyatı yaşanırdı. Yarışlar ilk gündən dünya mediasının diqqət mərkəzində olmuşdur. Mötəbər dünya qəzetləri yarışlar barədə müntəzəm xəbər, reportaj və müsahibə dərc edirdi. “Bütövlükdə oyunların tamaşaçı auditoriyası təqribən 823 milyon nəfərə çatıb. Oyunların rəsmi internet səhifəsində yarışları hər gün təqribən 5-6 milyon insan izləyib”.

İlk Avropa Oyunları Milli KİV-lər üçün də ciddi sınaq və təcrübə oldu. Milli mətbuatın lideri AZƏRTAC oyunların rəsmi media tərəfdaşı idi. AZƏRTAC-ın direktoru Aslan Aslanov yazır:

“AZƏRTAC-ın taleyinə Oyunların rəsmi media tərəfdaşı olmaq xoşbəxtliyi yazıldı. Əməkdaşlarımız ölkəni gəzib-dolaşan məşəl estafeti ilə yanaşı addımladılar, yarışların ilk dəqiqəsindən son anınadək arenalardan operativ xəbərlər hazırlayaraq ölkəyə və dünyaya yaydılar. Təkcə bir faktı qeyd etməyi yetərli sayıram: AZƏRTAC Oyunların keçirildiyi 17 gündə 7 dildə 4 mindən çox xəbər, yüzlərlə videosüjet hazırlayaraq yayıb”.

Əməliyyat Komitəsinin baş icraçı direktoru Azad Rəhimov, Əməliyyatlar üzrə baş direktor Saymon Kleq, mətbuat əməliyyatları şöbəsinin direktoru Ceyn Pirs bir tərəfdaş kimi AZƏRTAC-ın işindən razılıq etmiş, peşəkarlıq səviyyəsini yüksək qiymətləndirmişlər. Saymon Klek müsahibəsində demişdir:

“AZƏRTAC “Bakı-2015” ilk Avropa Oyunlarının rəsmi və əsas media tərəfdaşı oldu. Biz AZƏRTAC ilə birgə işləməkdən böyük həzz aldıq. Təbii ki, bizim mükəmməl tarix yazmağımızda AZƏRTAC-ın özünəməxsus dəstəyi oldu. AZƏRTAC nəinki Azərbaycanda, hətta üzv olduğu beynəlxalq alyanslarda da Oyunların geniş təbliği üçün əlindən gələni etdi. AZƏRTAC-ın imkanlarından istifadə etməklə ölkə ilə yanaşı, bütün Avropada, regionda Oyunlarla bağlı ən son yenilikləri çatdırmaq olduqca vacib idi. Bu, bir növ, Azərbaycanın nailiyyətlərini dünyaya nümayiş etdirilməsi deməkdir. Siz bizim üçün mükəmməl tərəfdaş oldunuz. Sizin agentliyiniz, peşəkarlıqla çalışan əməkdaşlarınız olmasaydı, əlbəttə ki, ölkə rəhbərliyinin qarşımıza qoyduğu məqsədlərə nail ola bilməzdik”.

“Bakı-2015” birinci Avropa Oyunları Əməliyyat Komitəsinin Əməliyyatlar üzrə Baş direktoru Saymon Kleq birinci Avropa Oyunlarına hazırlığın 30 ay ərzində uğurla başa vurulmasını “misilsiz nailiyyət” hesab edirdi. O, mətbuata müsahibəsində demişdir:

“Bu uğurun əldə edilməsində Azərbaycanın birinci xanımı, ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın böyük xidmətləri var. Möhtəşəm idman tədbirinə hazırlaşmaq üçün mənimlə yanaşı, Azərbaycanın gənclər və idman naziri, “Bakı-2015” birinci Avropa Oyunları Əməliyyat Komitəsinin baş icraçı direktoru Azad Rəhimov və 2 mindən çox istedadlı üzvü olan bir komanda çalışıb. Təqribən 78 faizini azərbaycanlılar təşkil edən bu komandanın üzvləri olduqca bacarıqlı, yüksək təhsilli və ambisiyalı gənclərdir”.

Birinci Avropa Oyunları ilə yaranmış böyük irsin Azərbaycanın gələcəkdə beynəlxalq idman tədbirlərinin keçirilməsində daha yaxşı mövqeyə çıxmasına təsir göstərəcəyini söyləyən Saymon Kleq yüksək səviyyədə görülən möhtəşəm işlərdən heyranlıqla danışırdı:

“Bakı Olimpiya Stadionu, üzgüçülük hovuzu və digər müasir tikililər, idman arenaları paytaxtınızın gələcəyi üçün zəngin miras qoyacaq. Ən yeni texnologiyalarla təchiz edilən müasir gimnastika arenası tikilib. Heyranedici, fantastik Bakı Olimpiya Stadionu yüksək səviyyədədir”.

İlk Avropa Oyunları ilə Azərbaycan Avropanın idman tarixinə yeni səhifə yazdı. Saymon Kleq qitənin ən mahir atletlərinin Avropa oyunlarında yeni idman yarışlarının, eləcə də görülən işlərin olimpiya standartları səviyyəsini dönə-dönə vurğulayırdı:

“Biz bəzi maraqlı təşəbbüslərlə, eyni zamanda fərqli və yeni innovasiyaların tətbiqi ilə olimpiya və qeyri-olimpiya idman növlərini bir araya gətirməyə çalışdıq. Paralimpiya cüdosu, əsas idman oyunları həsab olunan və proqrama daxil edilən basketbol, çimərlik futbolu, sambo və karate maraqlı və daha çox auditoriya cəlb edəcək idman növləridir. Biz heç zaman Olimpiya Oyunları ilə müqayisələr aparmırıq. Bununla belə, Avropa Oyunlarının və yarışlara hazırlıq işlərinin Olimpiya standartlarına cavab verdiyini bildirmək istərdim”.

Birinci Avropa Oyunlarında qalib gəlmiş idmançılar, onların məşqçiləri, idman ictimaiyyətinin nümayəndələri və xarici vətəndaşlarla görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Oyunların ən yüksək, dünya səviyyəsində keçirilməsi ilə tarixə düşəcəyini məmnunluqla söyləmiş, bu nailiyyətin xalqın dəstəyi ilə qazanılmasını vurğulamışdır:

“Hamımız yaxşı dərk edirdik ki, bu Oyunları yüksək səviyyədə keçirmək üçün gərək bütün ictimaiyyət, bütün Azərbaycan vətəndaşları buna fəal dəstək olsunlar. Belə də oldu. Məşəlin qarşılanması mərasimində iki milyona yaxın Azərbaycan vətəndaşı iştirak etmişdir. Bu böyük ictimai dəstək bizə güc və inam verdi ki, biz bu Oyunları ən yüksək səviyyədə keçirək”.

Avropa Oyunları idman tarixində Oyunların ən yüksək standartlarını yaratmaqla ilk cığır açdı. Gələcək oyunların məşəli Azərbaycanda Atəşgah məbədində yandırılacaqdır.

Ölkə Prezidentinin dərin məzmunlu nitqində deyildiyi kimi, müstəqillik illərində Azərbaycan dünyaya müasir, dinamik, demokratik, inkişaf edən, öz mədəniyyətinə, tarixinə bağlı olan xalq kimi, dövlət kimi tanınmışdır. Oyunlar xalqımızı bir daha birləşdirdi, nəyə qadir olduğumuzu nümayiş etdirdi. Yüzilliklərə bərabər 24 il ərzində Azərbaycan zirvələrə qalxmışdır.

“Bu Oyunlar, sadəcə olaraq, bizə imkan verdi ki, bu potensialı dünyaya, Avropaya, eləcə də öz ictimaiyyətimizə nümayiş etdirək. Həm insani potensial, həm dövlətimizin iqtisadi potensialı, həm cəmiyyətdə hökm sürən xoş əhval-ruhiyyə, xalqla iqtidar arasındakı birlik, milli ideyalar ətrafında birləşməyimiz, milli həmrəylik–məhz budur bizim uğurlarımızın əsas şərtləri”.

Bu gün Azərbaycanın müstəqil, güclü dövlət kimi inkişafı və qazandığı nailiyyətlər ölkə idmanının zirvələr fəth etməsinə imkan yaradacaqdır. İftixarla deyə bilərik ki, siyasi, iqtisadi, mədəni sahələrdə, diplomatik aləmdə, idman yarışlarında böyük nailiyyətlərimiz gələcək böyük idman arenalarında qələbələr qazanacağımıza inam yaradır.

**Teymur ƏHMƏDOV.**

